# Dövlət Proqramı məzunları



**Tanıtım:** Nərmin Quliyeva tam orta təhsilini Bakıdakı İlham Məmmədov adına 261 nömrəli məktəb-liseydə alıb. Məktəbi fərqlənmə attestatı ilə bitirib. 2017-ci ildə 604 bal toplayaraq Azərbaycan Dillər Universitetinin "İngilis dili müəllimliyi" ixtisasına daxil olub. II kursdan etibarən təhsilini SABAH qruplarında davam etdirib. 2021-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirib. Həmin ildə UNEC-in İnsan resurslarının idarə edilməsi üzrə MBA proqramına qəbul olub. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində 2023-2024-cü illərdə London Kral Kollecində "Təhsilin idarə edilməsi" ixtisası üzrə təhsil alıb. Təhsil illəri ərzində müxtəlif təşkilatlarda könüllü olub. LANDAU Məktəbində təcrübə keçdikdən sonra 2 il müddətində "CELT Colleges"də müəllim olaraq çalışıb. İngiltərədə Alpadia Dil Məktəbində ingilis dili müəllimi kimi fəaliyyət ona qlobal sferada təhsillə yanaşı, iş təcrübəsi də qazandırıb. Azərbaycana döndükdən sonra COP29 Əməliyyat Şirkətində mütəxəssis kimi fəaliyyət göstərib.

## "Təhsili milli gücün əsas komponenti hesab edirəm"

### London Kral Kollecinin əlaçı məzunu:

### "Məqsədim dünya miqyasında Azərbaycanın təhsil brendini yaratmaqda payı olanlardan biri olmaqdır"

Sabah Azərbaycanda 2 Fevral Gənclər Günüdür. Ölkəmizdə hər il yüksək səviyyədə qeyd olunan bu gün cəmiyyət həyatının bütün sahələrində çalışan, ölkəmizin inkişafına öz töhfələrini verən gənclərimizi oxucularımızla tanış etmək, onların uğur hekayələrini paylaşmaq baxımından əhəmiyyət daşıyır.

"Azərbaycan müəllimi" öz ənənəsinə sadiq qalaraq bu əlamətdar gün ərəfəsində Böyük Britaniyanın London Kral Kollecində ali təhsilini əla qiymətlərlə başa vurmuş Nərmin Quliyevanı müsahibəyə dəvət edib. Öncə müsahibimizlə yaxından tanış olaq.

**"Uşaqlıqdan öyrənməyə və öyrətməyə maraqlı olmuşam"**

– *İxtisas olaraq təhsil sahəsini seçmisiniz. Təhsil sahəsi sizin üçün nə dərəcədə əhəmiyyətlidir və bunu nə ilə izah edərdiniz?*

– Təhsil mənim üçün yalnız bir ixtisas deyil, həm də missiyadır. Hər şeyin açarı mənə görə məhz təhsildir. Təhsil cəmiyyətin inkişafı üçün əsas sütunlardan biridir. Uşaqlıqdan öyrənməyə və öyrətməyə maraqlı olmuşam.Düşünürəm ki, təhsil sahəsi deyil, başqa sahə seçsəydim, yenə də həyatımın mühüm hissəsi öyrənmək və öyrətmək kimi qalardı. Oxuduğum universitet olan Azərbaycan Dillər Universitetinin də əsas mottosu məhz "Docendo discimus – Öyrədərək öyrənirəm" idi. Bu mottonun özü də həyatımda böyük rol oynadı. Təhsil almaq hamının hüququdur. Lakin yaxşı təhsil almaq bir seçimdir. Düşünürəm ki, təhsil aldığım universitetlər, ixtisaslar mənə hər il yeni nəlirisə qazandırıb və qazandırmaqda davam edir. Bu sahəni seçməyim, yalnız fərdi uğur üçün deyil, həm də gələcək nəsillərə töhfə vermək məqsədini daşıyır. Təhsil insanların potensialını üzə çıxarır və onların həyatını dəyişir.

**Böyük fürsət pəncərəsi**

– *Məzun olduğunuz London Kral Kollecindən gözləntiləriniz özünü doğrultdumu? Elmi rəhbərləriniz, tələbələrin tədqiqatlara cəlb edilməsi barədə nə deyərdiniz?*

– Gözləntilərimdən daha çoxunu doğrultdu, deyə bilərəm. London Kral Kolleci mənə böyük fürsət pəncərəsi açdı. Azərbaycanda 2 ali təhsil müəssisəsini uğurla bitirməyimə baxmayaraq, xaricdə ali təhsil sistemi ilk dövrdə mənə çox fərqli və müəyyən qədər çətin gəldi. Tamamilə fərqli imtahan sistemi, müəllim yanaşması və s. bu prosesi bir qədər çətin, amma bir o qədər də maraqlı edirdi. Çünki yeni şeylər öyrənirdim və ən önəmlisi İngiltərənin top universitetlərindən birinin təhsil sistemini təcrübə etmiş olurdum. Bu fakt məni gələcək fəaliyyətim üçün daha həvəsli və maraqlı edirdi. Təhsilin idarə edilməsi sahəsində nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlar əldə etdim. Xüsusilə tədqiqat bacarıqlarımın inkişafı mənim üçün əvəzolunmaz bir təcrübə oldu. Elmi rəhbərim öz sahəm üzrə universitetin ən öndə gedən müəllimlərindən biri olan Dr. Sara Black idi. Tədris ilinin əvvəlində onun ilk mühazirəsini dinlədikdən sonra çox maraqlı fikirləri məni özünə çəkmişdi. Buna görə də 2-ci yarım ildə onun fənnini seçmişdim. Və bizdə elmi rəhbərlərin siyahısı açıqlandığı zaman onun mənim elmi rəhbərim olmasını gördükdən sonra dissertasiyamı yazmağa daha da həvəslənmişdim, çünki Sara Black-dən çox şey öyrənmişdim. Dissertasiyamı yazdığım dövrdə daimi diqqəti, yazdığım yazılara öz geridönüşünü etməsi, punktuallığı və rəylərinin çox konstruktiv olması mənim o mərhələni uğurla başa vurmağıma çox kömək oldu.

Ümumiyyətlə, universitetdə tədqiqatlara cəlb etmə olduqca yüksək səviyyədə idi. Belə ki, il ərzində bizim verdiyimiz imtahanlar əsasən tədqiqatlar üzərində olurdu və bu da öz növbəsində dissertasiya prosesinə gəlib çatanda bizdə güclü araşdırma qabiliyyətləri yaratmış, fərqli metodlar yoxlamağa sövq etmişdi. Bu təcrübələr mənə qlobal perspektivdən təhsilə baxmağı öyrətdi.

**"Həm oxuyub, həm işləmək dəyərli bir təcrübədir"**

– *İki magistr təhsili və iş həyatı. Bunları uğurla nizamlamağa necə nail oldunuz? Özünüzü necə motivasiya edirsiniz?*

– Həyatımda həm akademik, həm də peşəkar sahədə uğurlu olmaq üçün nizam-intizam və vaxtın düzgün idarə edilməsi mənim üçün çox vacib idi. İki magistr təhsili dövründə həm dərslərimi, həm də işimi uğurla idarə etmək üçün həftəlik və aylıq məqsədlər qoyurdum. Hər bir tapşırığı detallı şəkildə planlayaraq, prioritetləri düzgün müəyyənləşdirirdim və işləri mərhələli şəkildə tamamlayırdım. Bu yanaşma həm məhsuldarlığımı artırır, həm də böyük hədəflərə doğru inamla irəliləməyimə kömək edirdi.

Əsas motivasiya mənbəyim ailəm və dostlarımdan mənə olan sonsuz güvən və dəstəkdir. Bununla yanaşı, özümü tanımağım və məqsədlərimi dəqiq müəyyənləşdirməyim də motivasiyamı gücləndirir. Məncə, bir işi uğurla başa çatdırmaq, digər iş üçün əlavə enerji və həvəs yaradır. Buna görədir ki, hər yeni nailiyyətim mənə daha da irəli getməyim üçün enerji verir. Geri dönüb baxanda, həm oxuyub, həm işləmək nə qədər çətin olsa da, mənim üçün qürurverici və dəyərli bir təcrübədir.

Bu prinsipial yanaşma mənim həm akademik sahədə, həm də peşəkar həyatda davamlı uğurlar əldə etməyimə səbəb olub.

**"Pedaqoji heyətin imtahan nəticələri şagird və tələbələrin artan göstəricilərində öz əksini tapır"**

– *Azərbaycan təhsil sistemində aparılan islahat və yeniliklərə münasibətiniz necədir? Xaricdən baxanda bu yeniliklər necə görünür?*

– 2006-cı ildən təhsil alıram və aldığım təhsilin keyfiyyətində günü-gündən müsbət dəyişikliklər müşahidə etmişəm. Xüsusilə son dövrlər aparılan islahatlar, 2022-2026-cı illər sosial-iqtisadi inkişaf Strategiyasında təhsillə bağlı qoyulan hədəf və məqsədlər, şübhəsiz ki, təhsilin keyfiyyətinin daha da yaxşılaşacağına olan göstəricilərdir. Təhsilin keyfiyyətinin artması həm də pedaqoji heyətin, müəllimlərimizin imtahan nəticələrindən sonra xüsusilə şagird və tələbələrin artan göstəricilərində öz əksini tapır.

**Azərbaycan müəllimi həm də psixoloq olmalıdır**

– *Sizcə, Azərbaycan müəllimi necə olmalıdır?*

–Azərbaycan müəllimi tələbəsinin inkişafı üçün əlindən gələni edən gözəl pedaqoq, eyni zamanda psixoloq olmalıdır. Digər sözlə desək, Azərbaycan müəllimi həm peşəkar biliklərə sahib, həm də emosional zəka ilə zəngin bir şəxsiyyət olmalıdır. Müəllim yalnız bilik verən deyil, həm də tələbələrin həyatda doğru istiqamət seçməsinə kömək edən bir bələdçidir. Məncə, müasir Azərbaycan müəllimi yeniliklərə açıq olmalı, texnologiyadan istifadə etməyi və tələbələrlə empatiya qurmağı bacarmalıdır. O, eyni zamanda həm milli dəyərləri qorumağı, həm də qlobal perspektivi təşviq etməyi bacarmalıdır.

**"Təhsildə insan amilinin ön plana çıxarılması ən önəmli məsələdir"**

– *Sizcə, təhsil sahəsinin uğuru nədən asılıdır – müəllimdən, təhsilin effektiv idarə edilməsindən, islahatların dönməz və sistemli xarakterindən?*

– Təhsil prosesi kompleks bir prosesdir. Burada demək olar ki, hər şey bir-biri ilə əlaqəlidir. İlk öncə, təhsil sistemi düzgün və beynəlxalq standartlara uyğun olmalıdır. İkinci olaraq, təhsilverənlər işlərində peşəkar pedaqoqlar olmalıdırlar. Şagirdlər öz növbəsində təhsili düzgün mənimsəməlidirlər. Ümumi pəncərədən baxdıqda isə, davamlı islahatlar, düzgün idarəçilik, infrastrukturun yüksək səviyyədə təminatı sistemi daha da mükəmməlləşdirir. Təhsildə insan amilinin ön plana çıxarılması ən önəmli məsələdir. Hər bir tələbənin fərdi ehtiyaclarına və maraqlarına uyğun yanaşma göstərmək təhsilin əsas məqsədlərindən biri olmalıdır.

**"Xaricdə təhsil təkcə akademik uğur deyil, həm də şəxsi inkişaf üçün bir fürsətdir"**

– *Xaricdə təhsil üzrə dövlət proqramları davam edir. Gənclərimizə bu imkanlardan yararlanmaq üçün nə kimi tövsiyələriniz olardı?*

– Dövlət proqramları gənclər üçün yaradılmış ən böyük şanslardan və imkanlardan biridir. Bu proqramlar tələbələrə beynəlxalq təhsili müşahidə etmək və özlərinin ən yaxşı təcrübə və bilikləri ilə ölkəyə dönüb olduqları sahədə Azərbaycana töhfə vermələri üçün açılan qapı rolunu oynayır. Bu kimi proqramlardan yararlanmaq üçün əsas tövsiyəm o olardı ki, öz göstəricilərini maksimum yuxarı saxlasınlar, məqsədlərini dəqiq müəyyənləşdirsinlər və həqiqətən yaxşı hesab olunan ali təhsil müəssisələrində təhsil alsınlar. Bu müddət ərzində hər şey öz əllərində olacaq: öz məsuliyyətlərini dərk etsinlər. Eyni zamanda təhsillə yanaşı, həmin ölkələrdə iş təcrübəsi qazanmağa çalışsınlar. Çünki bu, rəqabətli iş mühitində onları daha öndə edəcək. Düşünürəm ki, xaricdə təhsil təkcə akademik uğur deyil, həm də şəxsi inkişaf üçün bir fürsətdir.

**"Azərbaycanın daha da yaxından tanıdılmasına nail olmuşduq"**

– *Müşahidələriniz necə oldu, gənclərimiz xarici ölkələrdə (Britaniya nümunəsində) Azərbaycanı necə təmsil edirlər, onların təşkilatlanma səviyyəsi barədə nə deyərdiniz?*

– London Kral Kollecində biz Azərbaycan Cəmiyyəti yaratmışdıq və mən vitse-prezident idim. Bu cəmiyyəti təsis etmək biz 4 nəfər idarə heyətinin üzvü üçün olduqca mühüm və əhəmiyyətli addım idi. Məqsədimiz ölkəmizi xarici sferada ən gözəl şəkildə təmsil etmək, şəbəkələşmək, universitetimizdə təhsil almaq istəyən tələbələrə daha yaxşı kömək olmaq və onları dəstəkləmək idi. Müxtəlif tədbirlər, o cümlədən Novruz bayramını qeyd edərək öz milli adət-ənənəmizi əcnəbi universitet yoldaşlarımız və universitet heyəti ilə bölüşüb, Azərbaycanın daha da yaxından tanıdılmasına nail olmuşduq.

**"Təhsil yalnız fərdi inkişaf vasitəsi deyil"**

– *Siz Zəfər qazanmış ölkənin gəncliyini təmsil edirsiniz. Bir gənc olaraq Azərbaycanımıza öz töhfənizi nədə görürsünüz?*

– Sahəm təhsil olduğu üçün, bu sahənin inkişafına töhfə vermək məqsədilə qlobal təhsil sistemlərini öyrənməyi və xaricdəki təhsil proseslərini yaxından görməyi seçdim. Bu təcrübə mənim dünyagörüşümü genişləndirdi, təhsil sahəsində beynəlxalq yanaşmalar və ən yaxşı təcrübələrlə tanış olmağıma imkan yaratdı. İnandığım əsas məqam budur ki, əldə etdiyim biliklər və təcrübə Azərbaycanın təhsil sisteminə yeniliklər gətirmək və onu qlobal standartlara uyğunlaşdırmağa öz töhfəsini verəcək.

Zəfər qazanmış bir ölkənin gənci kimi, təhsili yalnız fərdi inkişaf vasitəsi deyil, həm də milli gücün əsas komponenti hesab edirəm. Ölkəmizin gələcəyinə töhfə vermək məqsədilə gənclərin savadlı, yaradıcı və milli dəyərlərə sadiq olmasına kömək etmək mənim istədiyim əsas sahədir. Bu istiqamətdə atacağım hər bir addımın Azərbaycanımızın parlaq gələcəyinə xidmət edəcəyinə inanıram.

**Məqsədim Azərbaycan təhsilini qlobal səviyyəyə qaldırmaqdır**

– *Gələcək hədəfləriniz...*

– Gələcəkdə beynəlxalq layihələrdə iştirak edərək, təhsil sahəsində innovativ proqramlar tətbiq etməyi hədəfləyirəm. Məqsədim Azərbaycan təhsilini qlobal səviyyəyə qaldırmaq və dünya miqyasında Azərbaycanın təhsil brendini yaratmaqda payı olanlardan biri olmaqdır. Həmçinin, tədqiqat fəaliyyətlərimlə təhsil sahəsinə elmi töhfələr vermək istəyirəm.

**Oruc MUSTAFAYEV**